AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Aylıq informasiya BÜLLETENİ

№01
Yanvar

2024

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ

# İstehlakçıların maarifləndirilməsi sahəsində görülmüş tədbirlərin qısa xülasəsi

Yanvar 2024

İstehlakçılarla iş departamenti

**Azərbaycan Respublikasının Mərkəzi Bankı və Şirvan-Salyan Regional təhsil idarəsinin dəstəyi ilə Maliyyə savadlılığı mövzusunda onlayn imtahanlar təşkil edilmişdir**

Məktəblilərin maliyyə savadlılığının artırılması üçün Şirvan-Salyan Regional Təhsil İdarəsinin dəstəyi ilə Neftçala rayonunda təhsil alan şagirdlər üçün 18 yanvar 2024-cü il tarixində Neftçala rayon Xıllı qəsəbə 1 saylı tam orta məktəbində “Uşaqlar və pullar” və “Maliyyə Savadlılığı: strategiya, tədris, təhlil” kursları üzrə onlayn imtahan təşkil edilmişdir.

İmtahanlarda 56 nəfər şagird iştirak etmiş, onlardan 50% və artıq nəticə göstərən 45 nəfərdən 27 nəfər 70% -dən yüksək bal toplayaraq sertifikat əldə etmişdir.



**MiniBoss Biznes məktəbinin müəllim və şagirdləri Maliyyə savadlılığı proqramında iştirak etmişdilər**

19 yanvar 2024-cü il tarixində Mərkəzi Bankın maliyyə savadlılığı proqramı çərçivəsində MiniBoss Biznes məktəbinin 3 müəllimi və 22 şagirdi Mərkəzi Bankda olmuşlar.

Şagirdlər üçün Mərkəzi Bankın əməkdaşları tərəfindən “Resurslar məhduddur” və “Milli pul nişanlarımız və onların təhlükəsizlik elementləri” mövzusunda interaktiv seminarlar keçirilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır. Bundan əlavə, şagirdlər pulların emalı prosesi ilə tanış olmuşlar.

Tədbirin sonunda iştirakçılara maarifləndirici hədiyyələr təqdim edilmiş və xatirə şəkli çəkilmişdir.



## Azərbaycan Respublikasının Mərkəzi Bankı və Şirvan-Salyan Regional təhsil idarəsinin dəstəyi ilə Maliyyə savadlılığı mövzusunda onlayn imtahanlar təşkil edilmişdir

Məktəblilərin maliyyə savadlılığının artırılması üzrə növbəti tədbir Mərkəzi Bank və Şirvan - Salyan Regional Təhsil idarəsinin birgə təşkilatçılığı ilə Salyan rayonunda keçirilmişdir.

Mərkəzi Bankın Virtual Təhsil Platformasında qeydiyyatdan keçərək "Uşaqlar və pullar" və ya "Bankçılıq və rəqəmsal ödənişlər" kurslarını götürmüş şagirdlər üçün 19 yanvar 2024 tarixində Salyan şəhəri 1 saylı tam orta məktəbində Salyan rayonunda təhsil alan şagirdlər üçün imtahanlar təşkil edilmişdir.

Ümumilikdə imtahanlarda 109 nəfər şagird iştirak etmiş, onlardan 50% və artıq nəticə göstərən 88 nəfərdən 41 nəfər 70% -dən yüksək bal toplayaraq sertifikat əldə etmişdir.





## XXI-ci əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin müəllim və şagirdləri Maliyyə savadlılığı proqramında iştirak etmişdilər

Mərkəzi Bankın Maliyyə savadlılığı proqramı çərçivəsində XXI-ci əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin 4 müəllimi və 17 şagirdi Mərkəzi Bankda olmuşlar.

Şagirdlər üçün Mərkəzi Bankın əməkdaşları tərəfindən "Resurslar məhduddur" və "Milli pul nişanlarımız və onların təhlükəsizlik elementləri" mövzusunda interaktiv seminarlar keçirilmişdi. Tədbirin sonunda iştirakçılara maarifləndirici hədiyyələr təqdim edilmiş və xatirə şəkli çəkilmişdir.



## MiniBoss Biznes məktəbi şagirdləri Mərkəzi Bankda

26 yanvar 2024-cü il tarixində Mərkəzi Bankın maliyyə savadlılığı proqramı çərçivəsində MiniBoss Biznes məktəbinin 29 şagirdinin 2 müəllimin müşayəti ilə Mərkəzi Banka ekskursiyası təşkil edilmişdir.

Şagirdlər Emal şöbəsində və Sədrin ofisində olmuşlar.

Bundan əlavə, şagirdlərə "Pulu necə qazanaq" və "Milli pul nişanlarımız və onların təhlükəsizlik elementləri" mövzusunda interaktiv seminarlar keçirilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirin sonunda iştirakçılara maarifləndirici hədiyyələr təqdim edilmiş və xatirə şəkli çəkilmişdir.



# TƏDBİRLƏR üzrə STATİSTİKA




**174** İmtahan

**74** Sertifikat

Təlim, seminar, vebinar **3**

İştirakçı **77**

İştirak **77**



# ELEKTRON RESURSLAR üzrə STATİSTİKA

## Ziyarətçilər




## Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az

# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ İLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Daxil olan zənglər




## Yazılı müraciətlər




## Vətəndaşların qəbulu




Bank | Sığorta | Kapital bazarı | Digər

## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı

Əks Əlaqə

Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı

Digər

# ƏRAZİ İDARƏLƏRİNƏ MÜRACİƏTLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Yevlax Ehtiyat Mərkəzi




## Biləsuvar Regional Mərkəzi




## Quba Regional Mərkəzi




## Sumqayıt Ehtiyat Mərkəzi




## Gəncə Regional Mərkəzi




Bank | Sığorta | Kapital bazarı | Digər